

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 226 (23.137)

*27 noyabr 2018-ci il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da ABŞ-ın tanınmış din xadimləri ravvin Abraham Kuperi və yevangelist icmasının nümayəndəsi Conni Muru qəbul edib.

Abraham Kuper bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün dini icmaların, o cümlədən yəhudi icmasının nümayəndələrinin dinc və sərbəst fəaliyyəti üçün yüksək şəraitin yaradıldığını məmnunluqla qeyd edib.

Prezident İlham Əliyev Azərbaycanda bütün xalqların və dini icmaların nümayəndələrinin tarixən dinc yanaşı yaşadığını qeyd edərək, bu ənənələrin çoxəsrlik tarixə malik olduğunu bildirib və müstəqillik dövründə bu meylin uğurla davam etdirildiyini, multikulturalizmin dövlət siyasətinin prioritetlərindən biri olduğunu, milli və dini tolerantlığın yüksək dərəcədə təmin edildiyini vurğulayıb. Dövlətimizin başçısı bildirib ki, bütün bunlar dövlətin həyata keçirdiyi siyasəti və xalqın iradəsini əks etdirir. Dövlətimizin başçısı ravvin Abraham Kuperin və yevangelist icmasının nümayəndəsi Conni Murun ölkəmizə səfərinin əməkdaşlığın və qarşılıqlı anlaşmanın daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirib.

Söhbət zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub.



## A.S.Məmmədovun Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri vəzifəsindən azad edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Asəf Səttar oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 noyabr 2018-ci il*

## Muxtar respublikanın səhiyyə müəssisələrinə təcili tibbi yardım avtomobilləri təqdim olunub






Noyabrın 24-də Naxçıvan Muxtar Respublikasının səhiyyə müəssisələrinə 15 təcili tibbi yardım avtomobili təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov çıxış edərək demişdir ki, muxtar respublikada əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Səhiyyə sisteminin yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması əhalinin bütün təbəqələrinin sağlamlığının qorunması işində əsaslı dönüş yaratmışdır. İnfrastrukturun yenilənməsi, səhiyyə tibbi-informasiya sisteminin yaradılması, icbari tibbi sığortanın tətbiqi əhalinin sağlamlığının etibarlı təminatına səbəb olub. Bu gün yeni təcili tibbi yardım avtomobillərinin təqdimatı da muxtar respublikada səhiyyənin inkişafı sahəsində görülən işlərin davamıdır. Niyazi Novruzov muxtar respublikanın səhiyyə işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, əhalinin sağlamlığının qorunması sahəsində məsuliyyətlə çalışacaqlarına söz vermişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikanın səhiyyə təşkilatlarına təcili tibbi yardım avtomobillərinin təqdim olunması münasibətilə kollektivləri təbrik edərək demişdir: Ölkəmizdə və muxtar respublikada səhiyyənin inkişafı sahəsində görülən işlər əhaliyə nümunəvi tibbi xidmət göstərməyə imkan verəcəkdir. Ölkə başçısının diqqət və qayğısı ilə yeni xəstəxanaların tikilməsi, müasir tibbi avadanlıqların və təcili tibbi yardım avtomobillərinin alınması, həkimlərin ixtisasının artırılması və həyata keçirilən digər tədbirlər səhiyyənin inkişafına səbəb olmuşdur. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə baş verən hadisələr, səhiyyə sistemindəki problemlər, şəraitsiz xəstəxanalar, dərman çatışmazlığı insanların sağlamlığı üçün böyük təhlükələr yaradırdı. Lakin o günlər keçmişdə qalıb. Bu gün Azərbaycan inkişaf edir. Ölkəmizdə digər sahələr kimi, səhiyyə də inkişaf edir, tibbi xidmətin keyfiyyəti yüksəldilir.

Ali Məclisin Sədri demişdir: Hər bir ölkə üçün ən vacib sahələrdən biri də səhiyyədir. Çünki bu sahə insanların sağlamlığı ilə bağlıdır. Səhiyyə inkişaf edirsə, insanların sağlamlığı etibarlı qorunursa, o zaman ölkə də inkişaf edəcəkdir. Muxtar respublikada səhiyyənin inkişafı istiqamətində tədbirlər görülür, yeni xəstəxanalar tikilir, tibbi kadrlar hazırlanır, ən müasir avadanlıqlar alınaraq istifadəyə verilir. Görülən işlərin nəticəsidir ki, hər ay muxtar respublikanın səhiyyə müəssisələrində minlərlə insan ambulator və stasionar müalicə olunur. Muxtar respublikada ana və uşaq ölümü minimum səviyyədədir. İnfeksion xəstəliklərin qarşısı alınır. Artıq muxtar respublika əhalisi öz səhiyyə müəssisələrimizə və həkimlərimizə etibar edir. Bütün bunlar səhiyyə sahəsində qazanılan nailiyyətlərdir.

Bu nailiyyətlər münasibətilə səhiyyə işçilərini təbrik edən Ali Məclisin Sədri demişdir: Muxtar respublikada səhiyyənin inkişafı sahəsində görülən işlər bundan sonra da davam etdiriləcək, müasir şərait yaradılacaq, yeni tibbi avadanlıqlar alınacaq, kadr hazırlığı aparılacaqdır. Bu gün feldşer-mama məntəqələrindən, həkim ambulatoriyalarından muxtar respublika təyinatlı xəstəxanalara qədər tibb müəssisələrinin 96 faizi tamamilə yenidən qurulub, müasir iş şəraiti yaradılıb. Hazırda Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi yenidən qurulur, tələbələrin ixtisaslı kadr kimi yetişməsi üçün lazımi şərait yaradılır.

Ali Məclisin Sədri demişdir: Səhiyyə sahəsində ən mühüm məsələlərdən biri də təcili tibbi yardım xidmətinin təşkilidir. Ona görə ki, xəstəyə vaxtında tibbi xidmətin göstərilməsi onun həyatını xilas edir. Vaxtında və düzgün tibbi xidmət göstərilmədikdə isə insan həyatı üçün təhlükə yaranır. Bütün bunlar nəzərə alınaraq muxtar respublikada təcili tibbi yardım xidmətinin təşkili diqqətdə saxlanılır. Bu gün 15 təcili tibbi yardım avtomobilinin muxtar respublikanın səhiyyə müəssisələrinə təqdim olunması da bu sahədə xidmətin keyfiyyətini yaxşılaşdıracaqdır. Səhiyyə sahəsində yaradılan şəraitdən, alınmış tibbi avadanlıqlardan və təcili tibbi yardım avtomobillərindən səmərəli istifadə olunmalı, əhaliyə bundan sonra da keyfiyyətli tibbi xidmət göstərilməlidir.

Ali Məclisin Sədri muxtar respublikanın səhiyyə işçilərinin yaradılan şəraitdən səmərəli istifadə edəcəklərinə əminliyini bildirmiş və onlara fəaliyyətlərində uğurlar arzulamışdır.

Sədərək Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Kəmalə İbrahimova minnətdarlıq

*Ardı 2-ci səhifədə*

edərək demişdir: Sədərək rayonunda tibbi xidmətin təşkili sahəsində ardıcıl tədbirlər görülüb. Muxtar respublikada ilk dəfə icbari tibbi sığortanın Sədərək rayonunda tətbiqi həm sakinlər, həm də tibb işçiləri tərəfindən razılıqla qarşılanır. Əhaliyə göstərilən səhiyyə xidmətinin səviyyəsi xeyli yüksəlib. Sədərək Rayon Mərkəzi Xəstəxanasına da təcili tibbi yardım avtomobilinin təqdim olunması bu sahədə fəaliyyətin səmərəli təşkilinə imkan verəcəkdir.

Sonra Ali Məclisin Sədri təcili tibbi yardım avtomobillərinin açarlarını təqdim etmişdir.

Baxış zamanı məlumat verilmişdir ki, Türkiyə istehsalı olan təcili tibbi yardım avtomobillərində xəstələrin təxliyəsi zamanı ilkin tibbi müdaxilə və reanimasiya tədbirlərinin aparılması üçün lazımi şərait yaradılmışdır. Avtomobillər oksigen balonları, hərəkətli araba və xərəklər, ilkin tibbi yardım çantaları, dərman vasitələri və digər avadanlıqlarla təchiz olunub. Salonda havalandırma, isitmə, soyutma və işıqlandırma sistemləri quraşdırılıb. Yüksək texniki imkanlara malik olan təcili tibbi yardım avtomobilləri istənilən hava və yol şəraitində xəstələrin təhlükəsiz təxliyəsinə imkan verəcəkdir.

Yeni təcili tibbi yardım avtomobilləri Naxçıvan Muxtar Respublika Xəstəxanasına, Mərkəzi Uşaq Xəstəxanasına, Təcili Tibbi Yardım Mərkəzinə, Şərur Rayon Uşaq Xəstəxanasına və bütün rayon mərkəzi xəstəxanalarına təqdim edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Türk Şurası Gənc Liderlərinin Naxçıvan Forumu keçirilmişdir

Noyabrın 26-da Naxçıvan şəhərində Türk Şurası Gənc Liderlərinin ilk forumu keçirilmişdir.

Forum iştirakçıları ümummilli liderimiz Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstələri qoymuş, ulu öndərin xatirəsinə ehtiramlarını bildirmişlər. Heydər Əliyev Muzeyində dahi şəxsiyyətin həyatı, siyasi və dövlətçilik fəaliyyəti ilə bağlı eksponatlarla tanışlıqdan sonra xatirə şəkli çəkdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov forumun açılışında iştirak etmişdir.

Ali Məclisin Sədri Türk Şurası Gənc Liderlərinin Naxçıvan Forumunun bütün iştirakçılarını salamlamış, forumun işinə uğurlar arzulamış, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ***"Dövlət üçün, xalq üçün gənclik hər şeydən qiymətlidir. Gənclərin sağlam böyüməsi, yaxşı təhsil alması hər bir millətin, xalqın ən dəyərli sərvətidir. Çünki gənclər xalqın gələcəyidir"***, – fikrini xatırladaraq demişdir:






Azərbaycanın Naxçıvan Muxtar Respublikasında əhalinin 141 min nəfəri və ya 30 faizdən çoxu gənclərdir. Hər bir gənc ölkəsi və xalqı üçün o zaman yararlı vətəndaşa çevrilir ki, mükəmməl təhsil alsın və peşə sahibi olsun. Muxtar respublikada təhsilin inkişafı sahəsində ardıcıl tədbirlər görülür. Bu gün muxtar respublikada Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, 3 ali, 3 orta ixtisas və 5 peşə, 215 ümumtəhsil məktəbi, 26 uşaq musiqi məktəbi fəaliyyət göstərir. Hazırda ali təhsil müəssisələrinin bakalavr və magistratura təhsil səviyyəsində 154 ixtisas üzrə, orta ixtisas məktəblərində 27 ixtisas üzrə tələbə, peşə məktəblərində isə 20 ixtisas üzrə müdavimlər təhsil alır. Ali və orta ixtisas məktəblərindəki ixtisaslar müvafiq dövlət orqanlarının hamiliyindədir ki, bu da gənclərin peşəkar kadr kimi yetişməsinə öz töhfəsini verir. Muxtar respublikada gənclərin təhsili ilə yanaşı, onların işlə təminatı da əsas məsələlər sırasındadır.



İstər dövlət idarəçiliyində, istərsə də ictimai və təsərrüfat fəaliyyətinin digər sahələrində gənclərə böyük etimad göstərilir. Ölkəmizin inkişafında, müstəqil dövlətimizin möhkəmlənməsində və müdafiəsində gənc kadrların potensialından geniş istifadə olunur.

Ali Məclisin Sədri demişdir: Gənclərin sosial problemlərinin həlli, xüsusilə mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində də tədbirlər görülür. Naxçıvan şəhərində və rayon mərkəzlərində gənclər üçün yeni yaşayış kompleksləri və binaları tikilərək istifadəyə verilir, gənc ailələr mənzillə təmin olunur. Sağlam gəncliyin yetişməsində idman və bədən tərbiyəsi əsas şərtdir. Bunun üçün zəruri maddi baza yaradılıb. Muxtar respublikada 2 Olimpiya-İdman Kompleksi, 2 Üzgüçülük Mərkəzi, Şahmat və Atıcılıq mərkəzləri, rayon mərkəzlərində uşaq şahmat məktəbləri, uşaq-gənclər idman məktəbləri, stadion və süni örtüklü mini-futbol meydançaları, ümumilikdə, 51 idman obyekti, 900-ə yaxın sadə-tipli idman avadanlıqları gənclərin istifadəsindədir. Hazırda muxtar respublika gənclərinin 27 mindən çoxu boks, güləş, karate-do, futbol, şahmat, yüngül atletika, voleybol, basketbol, paralimpiya, hava və ekstremal idman növləri, atıcılıq və kikboksinq federasiyalarında aktiv şəkildə idmanla məşğul olur. Bütün bunların nəticəsidir ki, ötən il ölkəmizdə keçirilən internet sorğuya əsasən Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhəri 2018-ci il üçün Azərbaycanın





Gənclər Paytaxtı seçilmişdir.

Ali Məclisin Sədri demişdir: Elm, təhsil və mədəni inkişaf tarixən türk xalqlarını birləşdirib. "Kitabi-Dədə Qorqud" və "Manas" dastanları, Orxon-Yenisey, Qobustan və Gəmiqaya yazılı abidələri türk xalqlarının milli varlığının, təfəkkürünün və birliyinin ifadəsidir. Mövlana Cəlaləddin Rumi, Xoca Əhməd Yasəvi, Baba Nemətullah Naxçıvani kimi görkəmli mütəfəkkirlər ümumtürk mədəniyyətinin möhkəmlənməsinə öz töhfələrini vermişlər. Bu mədəniyyətdə payı olan Naxçıvan coğrafi cəhətdən də türk toplumlarının mərkəzində yerləşir. 2009-cu ildə Türkdilli ölkələrin dövlət başçılarının doqquzuncu zirvə görüşünün, bu gün isə Türk Şurası Gənc Liderlərinin ilk forumunun Naxçıvanda keçirilməsi mərkəz kimi Naxçıvanın əhəmiyyətini daha da artırır.

Ali Məclisin Sədri bütün bunları nəzərə alaraq Naxçıvanda Türk Universitetinin yaradılması təşəbbüsünü irəli sürmüşdür.

Ali Məclisin Sədri Türk Şurası Gənc Liderlərinin Naxçıvan Forumuna mühüm əhəmiyyət verildiyini, forumun səmərəli olacağına inamını bildirmiş, təşkilatçılara və iştirakçılara təşəkkür etmiş, çıxışını ölkə Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlamışdır: ***"Gələcəkdə gənclər ölkəmizi idarə edəcəklər. Bunun yeganə yolu ondan ibarətdir ki, gənclər vətənpərvərlik ruhunda tərbiyə alsınlar, öz Vətəninə bağlı olsunlar, öz Vətənini sevsinlər və dövlət müstəqilliyini hər şeydən üstün tutsunlar".***

Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov çıxış edərək demişdir ki, Azərbaycanın təşəbbüsü ilə Türk Şurası Gənc Liderlərinin ilk forumunun Naxçıvanda keçirilməsi mühüm əhəmiyyət daşıyır. Çünki 2009-cu ildə Naxçıvanda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının əsası qoyulmuşdur. Həmçinin bu il Naxçıvan şəhəri Azərbaycanın Gənclər Paytaxtı seçilmişdir. Naxçıvanda keçirilən bu forum eyni soykökə, ortaq mədəniyyətə və tarixə malik olan türkdilli ölkələrin gəncləri arasında əlaqələrin daha da möhkəmləndirilməsi və inkişafı, eləcə də idman sahəsində əməkdaşlığın qurulması üçün geniş imkanlar açacaqdır. Azad Rəhimov forumun təşkilində göstərdiyi dəstəyə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Türk Şurası baş katibinin müavini Ömər Kocaman çıxış edərək demişdir: Naxçıvan Türk dünyası üçün mühüm əhəmiyyətə malikdir. Ona görə də Türk Şurası Gənc Liderlərinin Naxçıvan Forumu gənclər siyasəti sahəsində əməkdaşlıq imkanlarının müzakirə olunması və yeni istiqamətlərin müəyyənləşdirilməsi baxımından vacib amil kimi dəyərləndirilməlidir. Forum türkdilli ölkələr arasında gənclər platformasının qurulmasına vəsilə olacaqdır. Qarşıda duran əsas məsələlərdən biri beynəlxalq təşkilatlarla gənclik

*Ardı 3-cü səhifədə*

sahəsində əməkdaşlığın qurulmasıdır. Ömər Kocaman təmsil etdiyi təşkilat tərəfindən həyata keçirilən tədbirlərdən danışmış, Türk Şurası Gənc Liderlərinin Forumunun bundan sonra da davam etdirilməsinin əhəmiyyətini vurğulamış, Naxçıvan forumunun təşkilinə görə minnətdarlıq etmişdir.

Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva demişdir ki, qədim mədəniyyətə malik olan Naxçıvan bu gün bütün sahələrdə inkişaf edir. Artıq Naxçıvan Türk dünyasının elm, mədəniyyət və maarifçilik mərkəzinə çevrilib. Memar Əcəmi Naxçıvani, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, tanınmış rəssam Bəhruz Kəngərli yurdu Naxçıvan Türk dünyasının böyük oğlu, türkdilli xalqların birliyinin təmin olunmasında mühüm xidmətləri olan ümummilli liderimiz Heydər Əliyevin vətənidir. Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən bu il Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsi ilə bağlı "Dədə Qorqud" kamera orkestrinin konserti olub. Qeyd olunmuşdur ki, bu gün qarşımızda duran əsas məqsəd türk xalqlarını daha da yaxınlaşdırmaqdan, yeni əməkdaşlıq imkanları qurmaqdan, soykökümüz, zəngin mədəniyyətimiz və dəyərlərimiz haqqında gəncləri məlumatlandırmaqdan ibarətdir. Naxçıvan forumu bu istiqamətdə yeni imkanlar açacaqdır.



Türk Parlament Assambleyasının baş katibinin müavini Əli Yıldız çıxış edərək demişdir: Türkdilli ölkələrin müxtəlif sahələr üzrə fəaliyyət göstərən təşkilatları xalqlarımızın daha da yaxınlaşmasına və yeni əməkdaşlıq imkanlarının qurulmasına öz töhfələrini verirlər. Türk Parlament Assambleyasının bu sahədəki fəaliyyəti, xüsusilə qeyd olunmalıdır. Gənclər arasındakı əlaqələrin inkişafına mühüm əhəmiyyət veririk. Çünki hər bir xalqın gələcək idarəçiləri gənclərdir. Gənclərin müxtəlif sahələr üzrə müzakirələr aparması vacib məsələdir və keçirilən forum bu işə öz töhfəsini verəcəkdir.

Tədbirdə Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin türkdilli xalqların mahnı və musiqilərindən ibarət konserti olmuşdur.

Sonra Ali Məclisin Sədri türkdilli ölkələrin gəncləri ilə xatirə şəkli çəkdirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Azərbaycan Respublikasının gənclər və idman naziri: *Forumun ilk dəfə olaraq Naxçıvanda keçirilməsi həmin layihənin davamına böyük təkan verəcək*

Türk Şurası Gənc Liderlərinin Forumu ilk dəfə olaraq Naxçıvanda keçirilir. Bu, çox əlamətdar bir hadisədir. Türk Şurasının təsis konfransı da Naxçıvanda keçirilib. Düşünürəm ki, forumun ilk dəfə olaraq Naxçıvanda keçirilməsi həmin layihənin davamına böyük təkan verəcək.



Bu sözləri "Şərq qapısı" qəzetinə müsahibəsində Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov deyib.

Nazir vurğulayıb ki, burada dörd ölkənin – Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan gəncləri toplaşıb. Biz çox istəyərdik ki, onların arasında maraqlı fikir mübadiləsi aparılsın, müzakirələr olunsun. Bu forum gələcək fəaliyyətlə əlaqədar layihələrlə, ideyalarla bağlı fikir mübadiləsinin aparılması baxımından əhəmiyyətlidir.

Azad Rəhimov deyib: Qırğızıstanda keçirilən tədbirdə Özbəkistanın Prezidenti də iştirak edirdi. Ola bilsin ki, yaxın müddətdə Özbəkistan da bu layihəyə qoşulsun. Türk Şurası ölkələri ilə eyni köklərimiz, soyumuz, oxşar mədəniyyətimiz var. Gənclərimizin bir yerə toplaşaraq fikir mübadiləsi aparması bizim üçün çox vacib məsələlərdəndir.

**Tural AĞAYEV**

## Türk Şurası baş katibinin müavini: *Türk dünyasının həmrəyliyinə yol açan mühüm tədbirlərin əsası Naxçıvanda qoyulub*

Naxçıvan Türk dünyasında xüsusi bir yerə və əhəmiyyətə malik olan məkandır. Təsadüfi deyil ki, Naxçıvanda Türk dünyası baxımından ilklərə imza atılıb. Türk dünyasının həmrəyliyinə, birliyinə yol açan mühüm bir təşkilatın quruluşunu özündə əks etdirən Naxçıvan Sazişi sayəsində Türk Şurası yaradılıb. Məlumdur ki, Naxçıvan Sazişi 2009-cu ildə Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə toplantısında imzalanıb. Həmin ildən bu tərəfə iqtisadiyyat, təhsil, turizm, idman və mədəniyyət sahələrində bir sıra layihələr həyata keçirilib. Bu layihələrin də reallaşdırılmasının əsasında Naxçıvan Sazişi dayanır.



Bu fikirləri "Şərq qapısı" qəzetinə müsahibəsində Türk Şurası baş katibinin müavini Ömər Kocaman deyib. O vurğulayıb ki, gələcəyimizi əmanət etdiyimiz gənclərimizin, daha doğrusu, Türk Şurası Gənc Liderlərinin ilk forumunun məhz Naxçıvanda keçirilməsi də bu diyarın Türk dünyasında mühüm yerə malik olduğunu göstərir. Bununla önümüzdəki illərdə gənclər arasında keçiriləcək bütün tədbirlərin əsası da məhz Naxçıvanda qoyulmuş oldu.

Türk Şurası baş katibinin müavini deyib: – Biz belə bir mötəbər tədbirin Naxçıvanda keçirilməsinə şərait yaratdığına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığımızı bildiririk. Türk dünyasının tarixi bir məkanında belə mühüm bir tədbirin keçirilməsindən qürur duyuruq.

Bu gün aramızda Azərbaycandan, Türkiyədən, Qırğızıstandan, Qazaxıstandan çox sayda gənc liderlər təmsil olunurlar. Onların Türk dünyasında həyata keçiriləcək proqramlarla, layihələrlə bağlı təklifləri vardır. Forumda səsləndiriləcək təkliflərin həyatda əksini tapması üçün səylərimizi əsirgəməyəcəyik.

Türk Şurası çərçivəsində müxtəlif qurumların fəaliyyət göstərdiyini qeyd edən Ömər Kocaman bildirib ki, şuranın təşkilatçılığı ilə keçirilən tədbirlər davamlı xarakter alıb. Gənclik və idman sahələrində fəaliyyətlər ardıcıllığı ilə seçilir.

"Bütün tədbirlərin ümumi bir məqsədi var: Türk dünyasının gəncləri arasındakı əməkdaşlığın davamlı xarakter almasına çalışmaq, planlı şəkildə qarşılıqlı əməkdaşlığı inkişaf etdirmək. Bu mənada, Türk Şurası Gənc Liderlərinin Naxçıvan Forumu özünün müsbət nəticələri ilə həmin prosesdə mühüm rol oynayacaqdır", – deyə Türk Şurası baş katibinin müavini vurğulayıb.

**Rauf KƏNGƏRLİ**

## Türk Şurası Gənc Liderlərinin Naxçıvan Forumunun iştirakçıları mədəniyyət müəssisələri ilə tanış olublar

*Türk Şurası Gənc Liderlərinin Naxçıvan Forumu çərçivəsində "Təbriz" otelinin iclas zalında şuranın gənclər platformasının strukturu və idarəetmə formasının təqdimatı olub.*

Tədbir iştirakçıları səfər çərçivəsində "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində olublar. Xan sarayında bildirilib ki, bu muzey Naxçıvan xanlığının milli dövlətçiliyimizdəki rolu, Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasındakı xidmətləri nəzərə alınaraq yaradılıb. Hazırda 8 ekspozisiya zalından ibarət olan muzeydə minə yaxın eksponat var.





Milli memarlığımızın möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən olan Möminə xatın türbəsi və açıq səma altında nümayiş etdirilən daş abidələr qonaqlarda böyük maraq oyadıb.

Sonra qonaqlar Naxçıvan şəhərindəki Dövlət Bayrağı Meydanı və Muzeyi ilə tanış olublar. Burada onlara məlumat verilib ki, Dövlət Bayrağı Meydanı və Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən yaradılıb və 2014-cü il noyabrın 17-dən fəaliyyətə başlayıb. Muzeydə Naxçıvanda müxtəlif dövrlərdə qəbul edilmiş bayraqlar və dövlət atributları nümayiş etdirilir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə təsis edilmiş üçrəngli bayrağımız ikinci dəfə ulu öndər Heydər Əliyev tərəfindən 1990-cı il noyabrın 17-də Naxçıvanda qaldırılıb. Muzeydə həmin illərdə qəbul olunmuş tarixi qərarlar, Azərbaycan Respublikasının Dövlət Bayrağı və digər dövlət atributları haqqında ətraflı məlumatlar yerləşdirilib.

Ziyarətçilərə ekspozisiyadakı qədim dövlətlərin bərpa olunmuş bayraqları, gerbləri və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş dövlət rəmzləri və konstitusiyaları haqqında ətraflı məlumat verilib.

Qeyd edək ki, forum bu gün öz işini davam etdirəcək.

**Səbuhi HƏSƏNOV**

*Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar "Azərbaycanda Belarus gəncləri günləri" çərçivəsində Belarus Respublikasından bir qrup gəncin Naxçıvan Muxtar Respublikasına səfəri təşkil olunub.*

## Belarus Respublikasının bir qrup gənci Naxçıvanda







Belaruslu gənclər əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, Heydər Əliyev Muzeyi ilə tanış olublar.

Səfər zamanı Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində görüş keçirilib. Qonaqları salamlayan gənclər və idman nazirinin müavini Məcid Seyidov çıxışında bildirib ki, ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasəti muxtar respublikada da uğurla davam etdirilir. Gənclər muxtar respublikanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında fəallıq göstərirlər. Onların vətənpərvərlik ruhunda tərbiyəsinə xüsusi diqqət yetirilir, müxtəlif mövzularda tədbirlər keçirilir. Milli qəhrəmanlarımızın, şəhidlərimizin xatirəsi yad edilərək onların keçdiyi qəhrəmanlıq yolundan gənclərə ətraflı məlumat verilir, onların muzeylərimizə, tarixi abidələrimizə ekskursiyaları təşkil edilir, filmlər nümayiş olunur. Bu gün gənclərimizin bütün sahələrdə uğur qazanması onu göstərir ki, onlara dövlətimiz tərəfindən böyük diqqət və qayğı var.

Qeyd olunub ki, Naxçıvan şəhərinin 2018-ci ildə ölkəmizin Gənclər Paytaxtı seçilməsi, eyni zamanda İslam Mədəniyyətinin Paytaxtı elan olunması ilə əlaqədar keçirilən bir sıra ölkə və beynəlxalq səviyyəli tədbirlərdə də gənclərdə vətənpərvərlik tərbiyəsinin təbliği, onların yaradıcılıq potensialının üzə çıxarılması və intellektual səviyyələrinin yüksəldilməsi diqqət mərkəzində saxlanılıb.

Qədim diyarımızın belaruslu gənclərdə zəngin təəssüratlar yaradacağını vurğulayan Məcid Seyidov bildirib ki, son illər Naxçıvanda idmanın kütləviliyi də diqqət mərkəzində saxlanılır, muxtar respublikanın şəhər və rayonlarında olimpiya-idman komplekslərinin, idman mərkəzlərinin, uşaq-gənclər idman, şahmat məktəblərinin, orta məktəblərdə idman zallarının və sadətipli idman qurğularının istifadəyə verilməsi gənc nəslin fiziki sağlamlığının qorunması və kütləvi bədən tərbiyəsinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman nazirliklərinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə qonaqlara hədiyyələr təqdim edilib.

Tədbirdə Naxçıvan Musiqi Kolleci tələbələrinin, eləcə də belaruslu gənclərin ifasında səslənən musiqilər qonaqlar tərəfindən alqışlarla qarşılanıb.

Qeyd edək ki, "Gənclik" Mərkəzində belaruslu gənclərin əl işlərindən ibarət sərgi də təşkil olunub. Qonaqlar, həmçinin Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olublar.

**Ceyhun MƏMMƏDOV**

## *İbrahim Səfiyev – 120*

# Türk dünyasının tanınmış rəssamı

*Azərbaycan rəssamları sırasında taleyin gərdişi ilə dünyanın bir çox yerlərinə üz tutan, təzadlı və keşməkeşli həyat yaşayan sənət adamlarımız az deyil. Onların arasında Vətən həsrəti ilə qürbət ölkələrdə dünyasını dəyişənlər də var. Haqqında bəhs edəcəyimiz rəssam 1898-ci ildə Naxçıvanın Şərur rayonunda dünyaya göz açmış, üç yaşında olarkən atasını itirmiş, uşaqlıq illərini çətinliklər içində keçirən İbrahim Səfi (Səfiyev) məhz bu qəbildən olan sənətkarlarımızdandır.*



Balaca İbrahim kiçik yaşlarından rəsmə həvəs göstərmiş,12 yaşında ikən "Araz balıqçıları" adlı ilk rəsmini çəkmişdir. Rəssamlığa, incəsənətə qarşı ilk qığılcımları İbrahimin qəlbində, çox güman ki, sazı və sözü ilə el aşığı kimi tanınan atası oyatmışdır.

İbrahim Səfiyev ilk təhsilini Cəlilkənd məktəbində alıb. Sonra öz arzularını reallaşdırmaq üçün təhsilini davam etdirmək qərarına gəlib. İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra iki il Moskvadakı Rəssamlıq Akademiyasında təhsil alır. Rusiyadakı 1917-ci il inqilab hadisələrindən təsirlənərək təhsilini yarımçıq buraxıb Naxçıvana, doğma diyara qayıdır. Həmin illərin çətinlikləri rəssamdan da yan keçmir. Belə ki, o, Şərurda rəsm çəkməklə çörəkpulu qazanmaq məcburiyyətində olur.

I Dünya müharibəsi illərində Zaqafqaziyadakı ordunun tərkibində Türkiyəyə gəlir və həyatını burada, Türkiyədə qurmalı olur. Beləliklə, İbrahim Səfiyev qürbət elin nəbzini tutmaq üçün önəmli addımlar atır və ilk olaraq İstanbulda Gözəl Sənətlər Akademiyasına daxil olur və 1923-cü ildə buranı bitirir. Qeyd edək ki, Türkiyənin məşhur rəssamı Namiq İsmayıl da bu akademiyada təhsil almışdır. Qismət elə gətirir ki, İbrahim təhsilini bitirdikdən sonra Namiq İsmayılın emalatxanasında müsafir tələbə olaraq çalışır.

Həyatı heç də rahat olmayan İbrahim Türkiyədə bir çox sənət adamları ilə tanış olur və rəssamlar cəmiyyətində dəyərli dostlar əldə edir. O zaman Türkiyədə yaşayıb-yaradan tək naxçıvanlı rəssam deyildi İbrahim Səfiyev. Belə ki, ana tərəfindən qohumu, 1884-cü ildə Naxçıvan bəylərindən soylu bir ailədə anadan olmuş, rəssam-heykəltəraş Əkbər Kazım Muğan (Əkbər Kazımbəyov) da Türkiyədə yaşayıb-yaradırdı.

1924-cü ildən etibarən sərgilərdə iştirak etməkdə, tanınmaqda olan rəssam II Dünya müharibəsinin başlanması ilə əlaqədar hərbi xidmətə çağırılır. Orduda qulluğunu tamamladıqdan sonra həmişəlik İstanbulda məskunlaşır və həyatını sənətə bağlayır. Türkiyədə onu Türk dünyasının böyük lideri Mustafa Kamal Atatürkün portretini çəkən ilk rəssam kimi də tanıyırlar. Türk tarixinin şanlı səhifələrini və



qəhrəmanlarını öz tablolarında yaşadan rəssam bu portretdə dahi şəxsiyyətin obrazını sənətkarlıq kamilliyi ilə yanaşı, tarixi gerçəkliyi də inandırıcı şəkildə ifadə edə bilib.

İbrahim Səfiyev türk rəssamlıq sənəti tarixində özünəməxsus üslubu ilə tanınaraq Türkiyə rəssamlığına yeni nəfəs gətirir. Belə ki, o, sərbəst impressionizm üslubunda əsərlər yaradır, dostu Nadji Kalmıkoğlu (rus rəssamı Nikolay Kalmıkov) ilə birgə zadəgan köşklərinin divarlarına freskalar işləyir, interyer dizaynı ilə məşğul olurdu.

1946-cı ildən sonra isə rəssamın yaradıcılığının ən məhsuldar dövrü başlayır.

Türkiyədə tanınmış rəssam olmağına baxmayaraq, daim axtarışlar aparan sənətkar iki il Münhendə olmaqla bərabər, 11 il Avropa ölkələrində yaşamış və ərsəyə gətirdiyi əsərləri ilə bir çox sərgilər açaraq öz adını ölümsüzlər sırasına yazdıra bilmişdir. Öz yaradıcılığı ilə fərqlənən rəssam Türkiyə dövləti tərəfindən Roma və Vyanaya göndərilir. Görkəmli sənətkar bu ölkələrdə də fərdi və qarışıq sərgilərdə iştirak edir, özünün və əsərlərinin dəyərini artırır.

1967-ci ilə qədər, sadəcə, Marsiliyada səkkiz fərdi sərgi açan rəssam türk rəssamlığına klassik rəsm üslub düşüncəsini dəyişdirərək miniatür və primitivizmlikdən fərqlənən yeni bir meyil gətirmiş, öz dəst-xəttini yaratmışdır.

Rəssam ilk rəsm təhsilini Rusiyada aldığından güclü akademik rəsmləri ilə impressionizmin gətirdiyi boya incəliyini özünəməxsus tərzdə tətbiq etmişdir. Onun kətan üzərinə vurduğu boyalar son dərəcə orijinaldır. Bu əsərlərdə həssaslıq və lirik bir incəlik hökm sürür. Yaradıcılığı dövründə əsərlərində təbiəti müxtəlif cəhətləri ilə təsvir edən rəssam hər an dəyişən işıq-kölgəyə diqqət yetirərək sənətə məhəbbətlə yanaşmasını gizlətmirdi.

1950-ci illərdə bir çox sərgilərdə nümayiş olunan əsərlərindəki seçdiyi üslubda, xüsusilə boyanın qalın tətbiqində, rənglərə olan güclü meylində Avropa və türk rəssamlıq məktəbləri ənənələrindən bəhrələnməsi, lakin yaradıcı-



lığında rus impressionizminə üstünlük verməsi aşkar hiss olunurdu.

Rəssamın qalın rəng mozaikasından yoğurulmuş portretlərində isə psixoloji məqamlar çox güclüdür. Belə ki, hiss və duyğular, biçim və forma, rəng fırçanın gücü ilə böyük ustalıqla təsvir olunurdu. Əsərlərdəki təkrarsız kompozisiya biçimləri, rəng həlli və bədii şərh də müxtəlif məziyyətləri aşkarlamağa xidmət edir. Rəssamın tabloları keçirdiyi hiss və duyğuları dəqiq şərtləndirir.

Rəssam deyirdi: "Ən yaxşı müəllim təbiətdir, rəssamın müəllimi təbiətin içində var". Bu konsepsiyaya söykənən rəssamın yaradıcılığının əsas mövzusu təbiət idi. İbrahim Səfiyev natürmortlarında belə, saysız gül və çiçək çəkmişdir. Bu çiçəklərin rəngarəngliyi, parlaq boyaları insanda ılıq, həzin xoş hisslər oyadır.

Bir çox rəngkarlıq lövhələrində rəngli cizgilərin qəribə ritmindən ortaya çıxan romantik ovqat seyrçini ilk baxışdan özünə cəlb edir.

İbrahim Səfiyevi türk təsviri sənətinin postimpressionist janrına ən layiqli töhfə verən sənətkarlardan hesab etmək olar. Onun bir-birini təkrarlamayan saysız əsərlərində həyatdan aldığı ağır zərbələrlə əlaqəli nüanslar da görmək olar. Bu əsərlərin xronologiyası müəllifin keçdiyi yoldur. Bunu rəssamın sənətdəki inkişafını, onun rəngkarlıq manerasını formalaşdıran mərhələləri ardıcıl izlədiyimiz zaman görə bilərik.

Rəssam İbrahim Səfiyev sənətə bağlı ömrünü saysız-hesabsız qiymətli əsərləri ilə zənginləşdirmişdir. Məlum səbəblərdən çəkdiyi sıxıntılara baxmayaraq, həyatını tamamən sənətə həsr etmiş, Türkiyədə müxtəlif fərdi sərgilər açmışdır. Hər zaman rəssamlığın əsas qanunları içində güclü və mənimsənmiş bir realizmə hakim olmuşdur. Əsərlərini bir-bir gözdən keçirdikdə davamlı şəkildə yaranan yeni düşüncələr və görüntülər arasındakı bağlantı hiss olunmaqdadır. Yaşadıqlarının sonunda ortaya çıxmış duyğusal biçimlər və ifadələr, realist bir tərzdə təsvir olunan insan obrazı çoxsaylı əsərlərinin əsas mövzusudur.

1955-1966-cı illərdə sənətkar Qərbi Avropa incəsənətini incələyir, öz sərgilərini Cenevrə, Zürih, Münhen, Köln, Frankfurt, Vyana, Roma, Paris, Marsel və Afinada keçirir. Onun yaradıcılığının türk incəsənətinin Qərbdə tanıdılmasında və qəbul olunmasında böyük rolu olmuşdur. Bunu görən və bilən türk dövləti rəssamın bir çox sərgisini özü maliyyələşdirmişdi.

Xüsusilə 1960-1970-ci illərdən sonra işlənmiş rəsmlərində daha canlı və parlaq rənglərə üstünlük verilmişdir. Canlı və soyuq rənglərin əks etdirdiyi hərarət və işıq, bu rənglərə ağırlıq verən məna təzadı insanı öz təsiri altına alır.

Öz yaradıcılıq prinsipləri, mükəmməl işləmə tərzi olan sənətkarın son illərdəki əsərlərində olan yeni xüsusiyyətlər çeşidli mövzularda meydana çıxır.

1975-1980-ci illərdə İbrahim Səfiyev görmə qabiliyyətini get-gedə itirmiş, 4 yanvar 1983-cü ildə yüzüncü fərdi sərgisinin açılış axşamı həyata vida etmişdir.

Müxtəlif sənət cərəyanlarına, təzadlı rəssamlıq üslublarına yaxından bələd olan İbrahim Səfiyev yaradıcılığında realizmə üstünlük vermiş, dünya incəsənətinin mütərəqqi ənənələrini davam etdirmişdir. Boyakarlığın müxtəlif janrlarında çoxlu tablo, o cümlədən mənzərələr, portretlər və sair yaratmışdır. Bəzi mənzərə və natürmortların şux, şəffaf koloriti,



rənglərin oynaqlığı onu fransız impressionistlərinə yaxınlaşdırır, impressionizmin naturaya gətirdiyi işığa, parlaqlığa, kolorit gözəlliyinə aludəçiliyini göstərir. Onun "Burqaz adası tərəfdən Anadolu sahillərinin görünüşü", "Bursa dağında düzənlik", "Bosfordan bir mənzərə", "Qış mənzərəsi", "Anadolunun görünüşü" və sair əsərlərində bir çox ölkələrə səfər təəssüratları əksini tapmışdır. Türkiyədə, həmçinin Fransa, Avstriya, ABŞ, İsveçrə və sair ölkələrdə fərdi sərgiləri nümayiş etdirilmişdir. Mənzərə, portret və natürmortlarından ibarət bəzi əsərlərini Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinə bağışlamış, bir neçə əsəri 1989-cu ildə Bakıda keçirilən "Əzizim, Vətən yaxşı..." sərgisinin ekspozisiyasına daxil edilmişdir. Əsərləri Türkiyədə və dünya muzeylərində, o cümlədən şəxsi kolleksiyalarda, R.Mustafayev adına Azərbaycan İncəsənət Muzeyində qorunub saxlanılır.

İbrahim Səfiyevin 10 mindən artıq əsəri var və Türkiyədə ən çox əsəri olan rəssam kimi də tanınır.

Onun yaradıcılığına və şəxsiyyətinə böyük ehtiram göstərilərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Görkəmli rəssam İbrahim Səfiyevin 120 illik yubileyinin keçirilməsi haqqında" 2018-ci il 17 oktyabr tarixli Sərəncam imzalamışdır. Həmin sərəncam Türk dünyasının tanınmış rəssamının həyat və yaradıcılığının daha geniş tədqiq olunmasına və öyrənilməsinə xidmət edir. Bu isə görkəmli sənətkarın irsinə göstərilən diqqətin və muxtar respublikada rəssamlıq sənətinə verilən yüksək dəyərin ifadəsidir.

*Azərbaycan incəsənət tarixində İbrahim Səfiyev kimi rəssamlar az deyil. Onlar bizi, tariximizi, mədəniyyətimizi təbliğ edən, başəri ideyalı, tanınmağa, təbliğ olunmağa layiq şəxsiyyətlərdir.*

**Ülviyyə HƏMZƏYEVA**
***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı***

## *"Yüz il öncə və bu gün: Naxçıvan qadını"* mövzusunda konfrans

*Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə "Yüz il öncə və bu gün: Naxçıvan qadını" mövzusunda Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində konfrans keçirilib.*

Konfransı komitənin sədri Ramilə Seyidova açaraq bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi Naxçıvan Muxtar Respublikasında da silsilə tədbirlərlə dövlət səviyyəsində qeyd olunur. Bu il, həmçinin müsəlman Şərqində ilk dəfə Azərbaycan qadınına seçki hüququnun verilməsinin 100 illiyi tamam olur.

Komitə sədri vurğulayıb ki, tarixin yaddaşına çevrilmiş 1918-ci ildə seçib-seçilmək hüququ qazanan Azərbaycan, o cümlədən Naxçıvan qadınları qısa müddət ərzində böyük nailiyyətlər qazanıb, cəmiyyətin inkişafında fəal iştirak ediblər.

Vurğulanıb ki, bu gün muxtar respublikada dövlət qulluqçularının 515-i, yaxud 20 faizi, ümumiyyətlə isə işləyən əhalinin 33 faizi qadınlardır. Doğma diyarımızda 4 min 349 qadın sahibkarlıq fəaliyyəti, 7 min 590 qadın idmanın müxtəlif növləri ilə məşğul olur. Həmçinin bələdiyyə üzvü olan qadınların sayı 251 nəfər təşkil edir ki, həmin qadınların da 14-ü bələdiyyə sədridir.

Muxtar respublika qadınlarından 23 min 175-i Yeni Azərbaycan Partiyasının üzvüdür ki, onların da 111-i ərazi ilk partiya təşkilatının sədridir. Bütün bunlar onu deməyə əsas verir ki, artıq muxtar respublika qadınları cəmiyyət həyatının bütün sahələrində uğurla təmsil olunurlar. Ona görə də muxtar respublika qadınlarının əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir, ölkəmiz müstəqillik qazandıqdan ötən müddət ərzində qadınların 153-ü Azərbaycan Respublikasının, 149-u isə Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülüb, 132 qadın orden, medal və nişanlarla təltif olunub.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova "Qadınların seçki hüququ-insan hüquqlarının tərkib hissəsi kimi" mövzusunda çıxış edərək müasir dövrdə ölkəmizdə dövlət qadın siyasəti, qadın-kişi bərabərliyi, qadınlara yüksək dəyər verilməsi, hüquqlarının qorunması, onların cəmiyyətin bərabərhüquqlu üzvü olması üçün görülmüş işlərdən geniş bəhs edib.

"Naxçıvan qadınlarının fəaliyyətində təhsilin inkişafı" mövzusunda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yeganə Məmmədova, "Naxçıvan qadınlarının fəaliyyətində elmin inkişafı" mövzusunda AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Zeynəb Quliyeva, "Kütləvi informasiya vasitələrinin inkişafında qadınların rolu" mövzusunda isə Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü Sara Əzimova çıxış ediblər.

Sonda Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsi tərəfindən "Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan" mövzusunda hazırlanmış film nümayiş etdirilib, kitab sərgisinə baxış olub.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

***İtmişdir***

Naxçıvan Şəhər 6 saylı Mənzil İstismar İdarəsinə məxsus 0200047811 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

**Baş redaktor:**
MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Nail Əsgərov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1490. Sifariş № 857**